**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

*Əlyazması hüququnda*

**KƏMALƏ QURBAN QIZI ABDİNOVA**

# KEÇİD DÖVRÜ ŞƏRAİTİNDƏ ŞƏXSİYYƏTİN SİYASİ ŞÜURUNUN FORMALAŞMASINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN ROLU

**İxtisas: 5904.01** – Siyasi institutlar və sistemlər

Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI -2013**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Hüquq və Sosiologiya İnstitutunun «Politologiya və siyasi sosiologiya» şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **Ə.M.Tağıyev**
fəlsəfə elmləri doktoru, professor

**Rəsmi opponentlər:** **E.Ə.Nəcəfov**
fəlsəfə elmləri doktoru, professor

**E.B.Hacalıyev**
siyasi elmlər üzrə fəlsəfə doktoru

**Aparıcı elmi müəssisə:** **Bakı Dövlət Universitetinin «Politologiya və sosiologiya» kafedrası**

Müdafiə "__30_"_05______2013-cü il saat ___-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD.02.101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1001, Bakı şəhəri, Lermontov küçəsi, 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____»_____________2013-cü ildə göndərilmişdir.

**FD.02.101 Dissertasiya Şurasının**
**Elmi katibi,fəlsəfə üzrə**
**fəlsəfə doktoru, dosent** **S.İ.Məmmədova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** İctimai şüurun cəmiyyətdə baş verən proseslərə adekvat reaksiyası həmişə, xüsusən də bütöv bir nəslin şüuruna hakim kəsilən avtoritar, totalitar təfəkkür tərzi ilə uzun çəkən vidalaşma və yeni demokratik prinsiplərə yiyələnmə dövründə, yəni keçid dövründə diqqəti özünə cəlb etmişdir. Keçmiş totalitar təfəkkür substansiyası üzərində təşəkkül tapmış informasiya sisteminin fəaliyyətindən imtina edərək, demokratik dəyərlərə əsaslanan kütləvi informasiya vasitələrinin formalaşması və fəaliyyəti üçün bu gün artıq yeni, əvvəlkindən diametral surətdə fərqli bir yanaşma tələb olunur. Bu cür fərqli yanaşma eyni zamanda KİV-in şəxsiyyətin siyasi şüuruna təsiri zamanı da özünü göstərir.

KİV-in şəxsiyyətin siyasi şüuruna təsiri imkanlarının aktuallığının səbəblərini aşağıdakı kimi konkretləşdirmək olar:

– Kütləvi informasiya vasitələrinin siyasət aləmindəki əhəmiyyətinin artması;

– Kütləvi informasiya vasitələrinin vətəndaşların siyasətdə iştirakı və siyasətə münasibətinə fəal təsir göstərmək üçün real imkanlara malik olması;

– Kütləvi informasiya vasitələrinin ictimai həyatın müxtəlif sahələrində müəyyən balans və tarazlıq yaratması;

– Kütləvi informasiya vasitələrinin informasiyanın toplanması, sistemləşdirilməsi və ötürülməsi baxımından deyil, eyni zamanda informasiyaya təsir etmək cəhətdən mühüm əhəmiyyət kəsb etməsi;

– Kütləvi informasiya vasitələrinin özünütərbiyənin, insan özünüifadəsinin və özünütəsdiqinin etibarlı vasitəsi olması;

– Kütləvi informasiya vasitələrinin cəmiyyətin demokratikləşməsi prosesində əsas əlaqələndirici kimi çıxış etməsi.

Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin demokratik prinsiplərə əsaslanan möhkəm dayaqlar üzərində qurulmasına səy göstərən Ümummilli lider Heydər Əliyev mətbuat işçiləri ilə görüşündə demişdir: "Azərbaycanda güclü informasiya sistemi yaradılmışdır. Azad surətdə fəaliyyət göstərən yüzlərlə mətbuat orqanı, agentliklər, teleradio şirkətləri cəmiyyətimizin çoxsahəli və etibarlı media şəbəkəsini təşkil edir. Yaşadığımız informasiya əsrində ölkəmizdə mətbuat vasitələrinin maneəsiz fəaliyyəti, dünya təcrübəsi ilə zənginləşməsi, xüsusilə də onların maddi-texniki vəziyyətinin yaxşılaşması, jurnalistlərin peşə səviyyəsinin yüksəldilməsi, hüquqlarının qorunması üçün bütün zəruri tədbirlər

görülür”.[1]

Kütləvi informasiya vasitələrinin azad fəaliyyəti və inkişafı müstəqil Azərbaycan Respublikasında dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Milli dövlətimizin kütləvi informasiya vasitələri ilə bağlı siyasətinin əsas xəttini azad, güclü və müstəqil informasiya daşıyıcısı olan, milli maraqlarımızı əks etdirən, dövlətçiliyimizi qoruyan və eyni zamanda, beynəlxalq münasibətlər sisteminə inteqrasiya edə bilən informasiya və kommunikasiya vasitələrinin yaradılması təşkil edir.

Müasir dövrdə kütləvi informasiya vasitələrinin genişlənməsi onun fəaliyyət və inkişaf mexanizmlərinin, şəxsiyyətin siyasi şüuruna təsir imkanlarının səmərəliliyinin öyrənilməsini daha da vacib edir. Hər bir fərdin siyasi şüurunun formalaşmasına təsir göstərən bir neçə amillər sırasında kütləvi informasiya vasitələrinin adı xüsusi olaraq qeyd olunur. Kütləvi informasiya vasitələri vətəndaşların ayrı-ayrı siyasi hadisə və prosesləri dərk etməsi ilə yanaşı, həm də onların siyasətdə iştirakı və siyasətə münasibətinə fəal təsir göstərmək üçün real imkanlara malikdir. KİV-in siyasi şüura təsiri, eyni zamanda, onun siyasət aləminin ayrılmaz tərkib hissəsi olması ilə əlaqədardır. Digər sahələrlə müqayisədə siyasət subyektlər arasında əlaqələrin yaradılması və saxlanmasında xüsusi informasiya mübadiləsi vasitələrinə daha çox ehtiyac duyur. Lakin qeyd etmək lazımdır ki, söylədiyimiz fikirlər KİV-in tamamilə siyasiləşməsi və müstəqilliyinin itirilməsi anlamında başa düşülməməlidir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev jurnalistlərlə görüşündə demişdir:

“Mən media sahəsində gələcək inkişafı müstəqil, sözün əsl mənasında müstəqil medianın gücləndirilməsində görürəm. Çünki hələ ki, bizdə bu sahədə, xüsusilə yazılı mediada siyasiləşmə meylləri çox güclüdür. Ola bilər ki, müəyyən mərhələdə − Azərbaycanda siyasi sistem, siyasi münasibətlər formalaşdığı bir dövrdə qaçılmaz idi. Ancaq mən hesab edirəm ki, bu gün medianın inkişafı üçün siyasiləşmə prosesi gərək azalsın. Çünki birinci növbədə, Azərbaycan cəmiyyəti siyasiləşmiş cəmiyyət deyildir. Azərbaycan cəmiyyəti vətənpərvər cəmiyyətdir”.[2]

KİV təkcə keçid dövrünü yaşamış və bu dövrü yeni başa vurmuş dövlətlərdə deyil, eyni zamanda, dayanıqlığı çoxdan bərqərar olmuş ölkələrdə də cəmiyyətin mənəvi, psixoloji, əxlaqi, sosial və digər dəyərlərinə təsir göstərmək və demokratik davranış sisteminin inkişafına təkan vermək kimi ağır funksiyanı yerinə yetirir. Azərbaycan

---

[1] Əliyev H. Müstəqilliyimiz əbədidir. 29 cilddə, cild 21, B., Azərnəşr, 2007, 42 s.
[2] Əliyev İ. Mən jurnalistləri vətənpərvərliyə çağırıram. Bakı: Kaspi, 2010, 9 s.

Respublikasında KİV və şəxsiyyətin demokratik siyasi şüurunun formalaşması ilə əlaqədar qeyd etmək lazımdır ki, KİV bu gün informasiya cəmiyyətinin inkişafında, vətəndaş cəmiyyətinin qurulmasında əsas siyasi institutlardan biridir. Bunun üçün ilk növbədə KİV-in siyasi sistemdə strateji hədəfləri müəyyənləşdirilməlidir. Ümummilli lider Heydər Əliyev bu sahədə imzaladığı Fərmanda göstərmişdir: «Bizim dövlət siyasətimizin əsas məqsədlərindən biri Azərbaycanın mütərəqqi mətbuat ənənələrinin davam etdirilməsi və müasir beynəlxalq təcrübə ilə zənginləşdirilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, onların imkanlarından respublikada hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşması və inkişafı, demokratik islahatların həyata keçirilməsində səmərəli istifadə edilməsindən ibarətdir»[1].

Həm bir vasitə, həm də məqsəd kimi müasir demokratikləşmə prosesinin gedişini şərtləndirən KİV xüsusi tədqiqat obyekti səviyyəsində öyrənilməlidir. Bu mənada, siyasi elmin üzərinə olduqca böyük vəzifə düşür və bu vəzifənin yerinə yetirilməsində dissertasiya səviyyəsində qoyulan problemin araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

**Problemin işlənmə dərəcəsi.** Keçid dövründə şəxsiyyətin siyasi şüurunun formalaşmasında kütləvi informasiya vasitələrinin rolu və onun işlənməsi siyasi elmin kompleks şəkildə tədqiq olunmuş sahələrindən olmasa da, siyasi ədəbiyyatlarda bu problemin müxtəlif aspektlərdə təhlil olunduğunu görürük. Bu baxımdan siyasi ədəbiyyatları şərti olaraq Azərbaycan Qərb və postsovet alimlərinin tədqiqat işlərinə bölmək olar. Problemin iqtisadi, sosial, idrakı, daha çox isə siyasi tərəflərinə dair son vaxtlar elmi ədəbiyyatlarda elmi-tədqiqat xarakterli yazılar, fikir və mülahizələr müşahidə edilsə də, keçid dövrünü yaşamış və yeni siyasi sistemə keçmiş Azərbaycanda demokratikləşmə prosesinin gedişində və yeni təfəkkür tərzinin formalaşmasında KİV-in yeri və rolu problemi siyasi elmin xüsusi tədqiqat obyekti kimi kifayət qədər araşdırılmayıb. Azərbaycanda demokratiyanın və KİV-in inkişaf perspektivləri, cəmiyyətə təsiri problemlərinə – R. Mehdiyev, Y.Əlizadə və Q.Məhərrəmli, Ə.Əliyev, V. Hacıyeva, H.Vəliyev, E.Quliyev, İ.Mazanlı, F.Babayev, N.Əhmədli, T.Məmmədov və başqaları öz tədqiqatlarında qismən yer vermişlər[2].

---

[1] «Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanı. «Azərbaycan» qəz., 6 avqust 1998.

[2] Mehdiyev R. Azərbaycan qloballaşma dövrünün tələbləri. Bakı: XXI YNE, 2005, 498 s.; Azərbaycanın efir məkanı: problemlər və vəzifələr. «Azərbaycan» qəz., 2 oktyabr, 2009.; Azərbaycan 2003-2008 – Zaman haqqında düşünərkən, Bakı: Şərq-Qərb, 2009, 167 s.;

Akademik R. Mehdiyevin «Azərbaycanın efir məkanı: problemlər və vəzifələr» məqaləsi Azərbaycan Respublikasında KİV-in mövcud durumunu və gələcək inkişaf istiqamətlərini təhlil edən mənbə hesab edilə bilər. Məqalədə eyni zamanda, efir məkanının nöqsanlı tərəfləri təhlil edilir, bu nöqsanları aradan qaldırmaq üçün tövsiyələr irəli sürülür. Tədqiqatçı Elşad Quliyevin «Televiziya: nəzəriyyə, inkişaf meylləri» kitabında müasir televiziyada baş verən mürəkkəb proseslər analiz edilir. Müəllif qeyd edir ki, televiziya ideoloji institut olduğundan, heç bir şəraitdə siyasətdən kənarda qala bilməz[1].

Ümummilli Lider Heydər Əliyevin çoxcəhətli ictimai-siyasi və dövlətçilik fəaliyyəti mətbuatla, kütləvi informasiya vasitələri ilə sıx surətdə bağlı olmuşdur. Məhz ona görə də, Tahir Məmmədov Azərbaycan siyasi mətbuatını tədqiq edən monoqrafiyasını «Azərbaycan Respublikasında siyasi mətbuatın inkişafında və formalaşmasında Heydər Əliyevin rolu» adlandırmışdır. Monoqrafiyada qeyd olunur ki, kütləvi informasiya vasitələrinin siyasi funksiyalarını və siyasətdə rolunu həmişə yüksək qiymətləndirən Heydər Əliyev dövlət quruculuğunda və hakimiyyətin idarə olunmasında, cəmiyyətin ən mühüm təsisatlarından birini – siyasi mətbuatın mahiyyətini mənəvi-ideoloji ünsürlərini − öz fəaliyyətində təcəssüm etdirən siyasi qüvvə kimi səciyyələndirmişidir[2]. N.Əhmədli «Kütləvi informasiya vasitələri xaricdə siyasi təbliğat sistemində» adlı monoqrafiyasında kütləvi informasiya vasitələrinin xarici siyasət sahələrindəki rolunu təhlil edərək bu vasitələrin üstünlüklərini araşdırmışdır[3]. Azərbaycan kütləvi informasiya vasitələrinin tədqiqatçılarından

---

İnformasiya təhlükəsizliyi mövzusunda məruzəsi, «Azərbaycan» qəzeti, 2011, 27 sentyabr; Əlizadə Y., Məhərrəmli Q. Azərbaycan efiri: tarix və müasirlik. Bakı: Nurlan, 2007, 183 s.; Əliyev Ə. Mətbuat azadlığına dair beynəlxalq standartların Azərbaycan qanunvericiliyində implimentasiyası // Demokratik cəmiyyətdə media: beynəlxalq və milli təcrübə, Beynəlxalq konfrans materialları. Bakı, 2010, 67 s.; Hacıyeva V. Siyasi orqanizm: elementlər, əlaqələr, proseslər. Bakı: Elm 2008, 335 s.; Vəliyev H. Beynəlxalq jurnalist təşkilatları. Dərs vəsaiti. Bakı: UniPrint 2005. 84 s.; Quliyev E. Televiziya, nəzəriyyə, inkişaf meyilləri. Bakı: Şərq-Qərb, 2004, 364 s.; Mazanlı İ. Söz azadlığı və informasiya təhlükəsizliyi: milli və beynəlxalq təminat. Bakı: UniPrint 2005, 159 s.; Babayev F. Azərbaycanda vətəndaş inteqrasiyası və KİV, Bakı,: Apostrof, 2011, 100 s.; Babayev F. IV hakimiyyət. Bakı: Renessans 2000, 112 s.; Əhmədli N. KİV xaricdə siyasi təbliğat sistemində. Bakı, 2004, 277 s.; Məmmədov T. Azərbaycan Respublikasında siyasi mətbuatın inkişafında və formalaşmasında H.Əliyevin rolu monoqrafiyası. Bakı: Nurlan, 2007. 239 s.

[1] Quliyev E. Televiziya, nəzəriyyə, inkişaf meyilləri. Bakı: Şərq-Qərb, 2004, 364 s.

[2] Məmmədov T. Azərbaycan Respublikasında siyasi mətbuatın inkişafında və formalaşmasında H.Əliyevin rolu monoqrafiyası. Bakı: Nurlan, 2007. 221 s.

[3] Əhmədli N. KİV xaricdə siyasi təbliğat sistemində. Bakı, 2004, 277 s.

sayılan Y.Əlizadə və Q.Məhərrəmlinin «Azərbaycan efiri: tarix və müasirlik» kitabında Azərbaycan milli radiosu və televiziyasının təşəkkülü, elektron KİV kimi formalaşması, mürəkkəb inkişaf yolu, yaradıcılıq baxımından və texnoloji cəhətdən keçdiyi tarixi mərhələlər işıqlandırılmışdır.[1]
Fuad Babayevin «Azərbaycanda vətəndaş inteqrasiyası və KİV» kitabında kütləvi informasiya vasitələri, onun cəmiyyətdəki rolu problemi tədqiq edilmişdir. Tədqiqatçının əsas məqsədi kütləvi informasiya vasitələrinin vəziyyətini öyrənməkdən, onların vətəndaş inteqrasiyasındakı rolunu və əhəmiyyətini bu istiqamətdə effektliliyinin artırılması perspektivi kimi tədqiq etməkdən ibarətdir.[2] F.Babayevin «Dördüncü hakimiyyət» adlı digər monoqrafiyasında əsasən, KİV-in cəmiyyətin siyasi sisteminə təsirinin elmi-praktik cəhətlərinə xüsusi diqqət yetirilmişdir[3].

Kütləvi informasiya vasitələrinin siyasi şüura təsiri istiqamətlərinin tədqiq edilməsinə XX əsrin ortalarından Amerika Birləşmiş Ştatlarında və Qərb ölkələrində başlanılmışdır. Amerikalı tədqiqatçı R.Eldon və b. müəlliflərin iştirakı ilə yazılmış «Kütləvi informasiya vasitələri. Müasir kommunikasiyaya giriş» adlı kitabda KİV-in siyasi-psixoloji təsir imkanları, yüz illər boyu mətbuatın insanların siyasi şüuruna təsir gücü araşdırılıb, televiziyanın KİV vasitəsi kimi cəmiyyətə təsiri ilə bağlı təhlillər verilib.[4] Amerikalı tədqiqatçı U.Lipmann KİV-in siyasi təsir istiqamətlərinin müəyyənləşdirilməsində elmi-nəzəri mənbə rolu oynayan «İctimai rəy» adlı kitabında KİV-in ABŞ-da seçki prosesini öyrənməklə, onun vətəndaşların siyasi meyllərinin formalaşmasında rolunu əsaslandırmışdır[5]. XX əsrin 60-cı illərində B.Koen tərəfindən bu nəzəriyyə daha da təkmilləşdirildi. O, KİV-in informasiya axınlarını idarə etməyə imkan verən xüsusi effekti aşkar etdi. Koenin tezisi belə səslənirdi: KİV insanları müəyyən tərzdə düşünməyə məcbur edə bilməz, lakin öz dinləyicilərinə nə barədə düşünməyə göstəriş verə bilər.[6] Tədqiqatçı P.Lazarsfeld «Xalqın seçimi» adlı əsərində elmi dövriyyəyə ikipilləli kommunikasiya modelini daxil etmişdir. Bu modelə görə KİV cari hadisələrin dəyərini bütün auditoriya üzvlərinə deyil, yalnız 10%-dən çox olma-

---

[1] Əlizadə Y., Məhərrəmli Q. Azərbaycan efiri: tarix və müasirlik. Bakı: Nurlan, 2007, 184 s.
[2] Babayev F. Azərbaycanda vətəndaş inteqrasiyası və KİV, Bakı,: Apostrof, 2011, 100 s.
[3] Babayev F. IV hakimiyyət. Bakı: Renessans 2000, 112 s.
[4] Hiebert R., Ungurait D., Bohn Th. Kütləvi İnformasiya Vasitələri. VI cild, Müasir kommunikasiyaya giriş, ingiliscədən tərcümə, Bakı: Xəzər Universiteti, 2005, 603 s.
[5] Герасимов В. Мухина О. Психологическое воздействие электронных СМИ (Политико-психологический анализ). Москва, 1999, с.388.
[6] Дубровский Д. Информация, сознание, мозг. Москва, 1980, с.196.

yan kiçik hissəsində formalaşdıra bilir. İnformasiyanın reflektiv dərki auditoriyanın müəllifin «Rəy liderləri» adlandırdığı kiçik bir hissəsində baş verir. Onlar cari hadisələrin dərkini siyasi proseslərlə az maraqlanan hissəsinə ötürürlər[1]. İngilis tədqiqatçısı Kin C. «KİV və demokratiya» adlı əsərində demokratikləşmə şəraitində KİV-in fəaliyyəti, onun siyasi şüura təsir istiqamətləri, müxtəlif rejimlərdə KİV-in funksiyalarının müqayisəli təhlilini vermişdir.[2]

Keçmiş sovetlər birliyində və digər xarici ölkələrdə də alimlər – V.Gerasimov, D.Dubrovski, O.Manayev, A.Kurtskix, V.Koybayev, N.Yermoşkin, və başqaları bu istiqamətdə tədqiqatlar aparmışlar. Tədqiqatçı A. Çuladze «Böyük manipulyativ oyun» adlı kitabında KİV-in manipulyativ fəaliyyətini tədqiq etmiş, onun siyasi şüurlara təsir imkanlarını araşdıraraq müəyyən nəticələrə gəlmişdir. [3]

KİV-in şəxsiyyətin siyasi şüuruna təsirinin ən mühüm vasitəsi informasiyadır. Məhz informasiya vasitəsilə siyasi şüurlar öz istiqamətlərini ilkin olaraq müəyyənləşdirirlər. Tədqiqatçı D.Dubrovski informasiya haqqında yazır ki, «doğrudur, informasiya anlayışı hələlik kütlə və enerji kimi fiziki katoqeriyalara xas olan dəqiq konturlara malik deyildir, onun məzmunu heç də həmişə birmənalı izah olunmur və diskussiyalar yaradır»[4].

Lakin mövcud ədəbiyyatı izlədikdə aydın olur ki, problemin bəzi tərəflərinə toxunulsa da, kompleks araşdırma və bilgilər yoxdur. Keçid dövrü və demokratikləşmədə şəxsiyyətin siyasi şüurunun formalaşmasında KİV-in yeri və rolu problemi, demək olar ki, ümumnəzəri-fəlsəfi-siyasi kontekstdə, metodoloji tələblər baxımından indiyədək ətraflı şəkildə öyrənilməyib və mövzuya dair elmi boşluqlar kifayət qədər çoxdur.

Cəmiyyətin siyasi sisteminin kütləvi informasiya vasitələrinə tələbatı

---

[1] Лазерсфельд П, Выбор народа, 1948.

[2] Кин. Дж Средства массовой информации и демократия. Москва: Памятники исторической мысли, 1994, 170 с.

[3] Герасимов В. Мухина О. Психологическое воздействие электронных СМИ (Политико-психологический анализ). Москва, 1999, с.388.; Дубровский Д. Информация, сознание, мозг. Москва, 1980, с.196; Манаев О. Методологические проблемы исследования эффективности СМИ. Москва, 1991, с.213; Куртских А., Федоров А. О международной информационной безопасности // Международная жизнь. № 2, 2000; Койбаев В. Международные организации: информация и безопасность на Ближнем Востоке. Санкт- Петербург: Изд-во Михайлова В.А. 2006, с.521; Ермошкин Н. Новый международный информационный порядок: проблемы и решения. Москва, 1988, с.250; Цуладзе А. Большая манипулятивная игра. Москва: Алгоритм, 2000, с.212.

[4] Дубровский Д. Информация, сознание, мозг. Москва, 1980, с.196.

bilavasitə onun funksiyalarından, siyasi agentlərindən, siyasi qərarların qəbul olunma üsullarından, dövlətin ərazisinin həcmindən və digər amillərdən asılıdır. Əgər kütləvi informasiya vasitələrinin siyasətə təsir imkanlarını şərti olaraq dövrlərə bölsək, onda bu təsir mərhələlərini mətbuat, radio, televiziya, müasir kommunikasiya və internet kimi bölüşdürmək mümkündür. Radio və televiziyanın siyasət aləminə daha güclü təsir imkanlarına malik olmasını nəzərə alaraq, mövzunun tədqiqində bu məsələ daha geniş işıqlandırılaraq, təhlil edilmişdir.

Televiziyanın inkişafı və yayılması radio ilə müqayisədə daha sürətlə olmuşdur. O, hazırda kütləvi informasiya vasitələrinin ən başlıca komponenti kimi çıxış edir. Ölkədə və dünyada baş verən real hadisələr haqqında adamlara operativ məlumat verilməsi və ya insanların müəyyən qruplarının mənafeyi əsas götürülməklə, onların məlumatlandırılması məhz, televiziyanın kimlərin əlində olmasından asılıdır[1].

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini keçid dövrü və bu dövrü yeni başa vuran cəmiyyətlərdə şəxsiyyətin siyasi şüuru, predmetini isə siyasi şüurun formalaşmasında KİV-in təsir xüsusiyyətləri və mexanizmləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi keçid dövründə və yeni formalaşan siyasi sistemlərdə - demokratikləşmə şəraitində şəxsiyyətin siyasi şüurunun formalaşmasında kütləvi informasiya vasitələrinin yeri və rolunun müəyyənləşdirilməsi, onların qarşılıqlı təsir və qarşılıqlı fəaliyyət mexanizmlərinin yeni istiqamətlərini araşdırmaqdan ibarətdir. Bunun üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi müəyyən edilmişdir:

– Yeni informasiya məkanında siyasi şüurun elmi-nəzəri əsaslarının tədqiqi;

– Keçid dövründə siyasi şüurda baş verən dəyişikliklərə kütləvi informasiya vasitələrinin təsirinin mahiyyət və məzmununun tədqiqi;

– Şəxsiyyətin siyasi sosiallaşması və yeni siyasi sistemə adaptasiyasınında KİV-in rolunun tədqiqi;

– Siyasi dəyər və qaydaların ötürülməsində kütləvi informasiya vasitələrinin əhəmiyyətinin tədqiqi;

– Demokratikləşmə şəraitində kütləvi informasiya vasitələrinin cəmiyyətə siyasi təsir istiqamətlərinin tədqiqi;

– Demokratikləşmə və qlobal siyasi proseslər şəraitində kütləvi informasiya vasitələrinin əsas funksiyalarının tədqiqi;

---

[1] Əfəndiyev M.Siyasi elmin əsasları. Bakı: Siyasət 2004, 198 s.

– Demokratikləşmə şəraitində şəxsiyyətin siyasi şüurunun formalaşmasında KİV-in yeri və rolunun tədqiqi;

– İnformasiya cəmiyyətində siyasi manipulyasiya və informasiya təhlükəsizliyi probleminin tədqiqi;

– Azərbaycan Respublikasında KİV və şəxsiyyətin demokratik siyasi şüurunun formalaşması və Azərbaycan Respublikasında informasiya siyasətinin qlobal və dinamik dünyanın tələbləri baxımından tədqiqi.

**Tədqiqatın nəzəri - metodoloji əsasları.** Ümummilli Lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin informasiya siyasəti ilə əlaqədar çıxış və nitqlərində irəli sürülmüş konseptual müddəalar, həmçinin Respublika və beynəlxalq elmi konfransların materialları, görkəmli alimlərin mövzu ilə bağlı çap olunmuş fundamental əsərləri tədqiqatın nəzəri bazasını təşkil edir.

Tədqiqat zamanı məntiqi-təhlil, tarixilik, sistemli yanaşma metodlarından istifadə olunmuşdur. Metodoloji əsas kimi, eyni zamanda siyasi şüur və KİV-in funksiyaları, məzmunu, təsir imkanları ilə bağlı problemlər üzrə nəzəri və emprik biliklər götürülür.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Tədqiqat prosesində Azərbaycan Respublikasının Konstitusiyası, KİV-lə bağlı dövlət başçısının sərəncam və fərmanları, Milli Məclis və Azərbaycan hökumətinin qərarları elmi-nəzəri mənbəşünaslıq bazası kimi istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi keçid dövrü şəraitində və yeni siyasi sistemdə – demokratikləşmə şəraitində KİV-in şəxsiyyətin siyasi şüuruna təsir imkanları və mexanizmləri məsələsinin qoyuluşu, hərtərəfli tədqiqi və geniş öyrənilməsindən ibarətdir və bu məsələlər aşağıdakı müddəalarda əks olunur:

– Kütləvi informasiya vasitələrinin transformasiya prosesləri şəraitində yeni formalaşan siyasi şüur və davranışın fəaliyyət və inkişaf istiqamətlərinə təsiri geniş tədqiq olunur;

– Ənənəvi baxışlar sistemindən fərqli olaraq, demokratikləşmə şəraitində kütləvi informasiya vasitələrinin formalaşması və fəaliyyəti üçün tələb olunan yeni yanaşmalar sistemli şəkildə araşdırılır;

– Siyasi tədqiqat predmeti kimi KİV-in demokratikləşmədə yeri və rolu öyrənilir, hüquqi, siyasi, iqtisadi və s. sahələrdə təsir imkanları tədqiq olunur;

– Azərbaycanda gedən transformasiya prosesləri şəraitində formalaşan yeni təfəkkürün mahiyyəti, strukturu, formalaşma yolları və xüsusiyyətləri KİV-də baş verən dəyişikliklərlə qarşılıqlı əlaqədə öyrənilir;

– KİV-in cəmiyyətdə özünütəşkilatlandırması, özünüidarəetməsi kimi

mühüm xüsusiyyətlərini formalaşdırması yolunda bir sıra təklif və tövsiyələr irəli sürülür, yeniləşməkdə olan cəmiyyət üçün müəyyən tədbirlər sisteminin vacibliyi əsaslandırılır.

– Demokratik prinsip və normalar əsasında fəaliyyət göstərən KİV-lə qarşılıqlı münasibətdə cəmiyyətin əldə etdiyi üstünlüklər totalitar rejimlərin xüsusiyyətləri ilə müqayisəli şəkildə təhlil edilir, demokratik Azərbaycanda KİV-in gələcək inkişaf istiqamətləri əsaslandırılmış şəkildə verilir.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işi ilə əlaqədar fakt və məlumatlardan, alınmış nəticə və irəli sürülən təkliflərdən elmi mühazirə və seminarların keçirilməsində, bu mövzuya dair elmi monoqrafiyaların yazılmasında, ali məktəblərin jurnalistika fakültələrində, yeni nəsil jurnalistlərinin hazırlanmasında istifadə oluna bilər.

Dissertasiyanın elmi-praktik cəhətlərindən milli dövlət quruculuğu prosesində balanslaşdırılmış və normal ictimai mühitin yaradılmasında, azad, müstəqil və qərəzsiz kütləvi informasiya vasitələrinin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində, cəmiyyətdə baş verən proseslərin konfrontasiya səviyyəsinə keçməməsi, vətəndaşlar arasında mütəşəkkillik və fəallığın, eləcə də aktivlik və passivliyin formalaşmasında, fərdi siyasi şüurda cəmiyyətin normal həyatına dair istiqamət və məqamların düzgün müəyyənləşdirilməsində istifadə oluna bilər.

**İşin aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Hüquq və Sosiologiya İnstitutunun «Politologiya və siyasi sosiologiya» şöbəsində müzakirə edilmiş və müdafiəyə tövsiyyə edilmişdir. Tədqiqatın əsas məzmunu iddiaçının elmi-nəzəri, elmi-praktik konfranslardakı iştirakında, Azərbaycanda və xaricdə nəşr edilən məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu**. Dissertasiya işi giriş, iki fəsil, altı paraqraf, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**"Girişdə"** mövzunun aktuallığı əsaslandırılmış, problemin işlənmə dərəcəsi müəyyənləşdirilmiş, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, metodoloji əsası, nəzəri və praktik əhəmiyyəti göstərilmiş, işin aprobasiyası və strukturu haqqında məlumat verilmişdir.

**«Keçid tipli cəmiyyətlərdə siyasi şüur və onun formalaşması prosesinə nəzəri yanaşmalar»** sərlövhəli birinci fəsil üç yarımfəsildən ibarətdir. **«Siyasi şüur ictimai şüurun tərkib hissəsi kimi»** adlı birinci yarımfəsildə siyasi şüur fenomeni kompleks şəkildə tədqiq edilərək, onun

siyasi hadisə və prosesləri əks etdirməklə yanaşı, siyasi reallığı yaratmaq, siyasi praktikanı qabaqlamaq və ictimai-siyasi proseslərin inkişafını proqnozlaşdırmaq qabiliyyəti, insanların hissi və nəzəri, dəyər və normativ, rasional və şüuraltı təsəvvürlərinin məcmusunu əks etdirən kateqoriya olması, siyasi şüurun strukturunun mürəkkəbliyindən və çoxölçülüyündən irəli gələn çətinlikləri geniş şəkildə araşdırılır.

İctimai inkişafın gedişində subyektiv amilin əhəmiyyət və rolunun getdikcə artması, buna müvafiq olaraq ictimai şüurun funksiyalarının təkmilləşməsi, onların idrakı və tərbiyəvi imkanlarının genişlənməsi tarixi prosesin mənəvi məzmununu dərindən dərk etməyi, ictimai şüur formaları arasında dialektik vəhdəti daha ətraflı öyrənməyi tələb edir. Ona görə də, bu yarımfəsildə siyasi şüurun ictimai şüurun digər formaları ilə qarşılıqlı əlaqələr, onların fərqli və üstün cəhətləri araşdırılaraq təhlil edilir.

İctimai şüur formalarının əmələ gəlməsi, formalaşması və zənginləşməsi prosesinin əsasında ilk növbədə siyasi münasibətlərin mürəkkəbləşməsi, ictimai, tarixi, praktiki fəaliyyətin dərinləşməsi, insanın obyektiv aləmi dərketmə imkanının genişlənməsi prosesi tutur. Müasir ictimai inkişafın obyektiv gedişi bütün ictimai münasibətlər sistemində olduğu kimi, ictimai şüur formalarının təkamülündə, xüsusən xarakterik vəhdətində, qarşılıqlı əlaqəsi və təsiri sahəsində də böyük dəyişiklik əmələ gətirmişdir. Siyasi şüurun iqtisadi münasibətləri, sosial mənafeləri və sosial əlaqələri dolğun və birbaşa əks etdirməsi, həmçinin dövlət və hakimiyyətlə bilavasitə bağlılığı məsələlərinin təhlili vasitəsilə onun digər şüur formalarına güclü təsiri tədqiq edilmişdir. Bu paraqrafın gedişində siyasi şüur üç – fərdi, qrup, kütləvi səviyyədə öyrənilir və bu əsasda onun əsas subyekti və obyekti olan insan çoxtərəfli, çoxölçülü və çox keyfiyyətli siyasi fenomen kimi araşdırmaya cəlb olunur. Siyasi şüurun sistemli şəkildə təhlil və tədqiqi üçün onun dərketmə və motivasiya kimi tərkib hissələri, bixeviorial və aksioloji yanaşmalar, müxtəlif forma və səviyyələri kompleks şəkildə öyrənilmişdir. Eyni zamanda siyasi şüurun təsnifatı ilə bağlı müxtəlif nöqteyi-nəzərlər diqqətdən keçirilmişdir.

Siyasi şüurun öyrənilməsində mühüm əhəmiyyət kəsb edən əsas məsələ onun siyasi ideologiya və siyasi psixologiya ilə bağlılığı və yaxud münasibəti problemidir. Ona görə də, tədqiqatın gedişində siyasi ideologiya və siyasi psixologiya siyasi şüurun struktur elementləri kimi araşdırmaya cəlb edilərək öyrənilmişdir.

Siyasət elmində siyasi şüurun funksiya və rolunun birmənalı olaraq qiymətləndirilməməsi çox mühüm əhəmiyyət kəsb edən və tədqiq edilməsi vacib olan problemlərdən olması onun cəmiyyətin siyasi həyatında yerinə

yetirdiyi və oynadığı rola münasibətdə elmi-nəzəri yanaşmalar açıq şəkildə təhlil edilərək fərqləndirilmişdir.

**«Keçid dövründə siyasi şüurda baş verən transformasiyalar»** adlı ikinci yarımfəsildə müasir dövrdə istər dünya birliyində, istərsə də ayrı-ayrı dövlətlərdə baş verən dinamik dəyişikliklərin həmin cəmiyyətlərdəki siyasi şüura təsir imkanları tədqiq edilərək öyrənilmişdir. Faktiki olaraq, yeni əsrdə dünyanın bütün ölkələri bu və ya digər dərəcədə keçid dövrü sınaqlarından çıxmalı olmuşdur. Bununla yanaşı, hər bir dövlət dəyişən dünyada öz yerini elə müəyyənləşdirməyə çalışır ki, əvvəla, öz milli mənafeyini imkan daxilində maksimum qoruya bilsin, ikincisi isə bu günün və gələcəyin inkişaf meyllərini daha səmərəli nəzərə alsınlar. Demək olar ki, keçid dövrünün meydana çıxardığı bütün problemlərin uğurlu və keyfiyyətli həlli məhz, transformasiya prosesinin gedişindən çox asılı olmuşdur, çünki beynəlxalq münasibətlər sistemində baş verən ideoloji sistem dəyişikliyi mütləq insanların şüurunda dəyişikliklərlə müşaiyət olunmalı idi. Bu yarımfəsil, məhz sadalanan dəyişikliklər fonunda təhlil edilir.

İlk növbədə, bəşər tarixinin müxtəlif inkişaf pillələrində siyasi şüurun vəziyyəti və onda baş verən müxtəlif dəyişikliklər təhlil olunur, ümumi nəticələr müəyyən edilir. Lakin müasir dövrdə dünyada baş verən dinamik və sürətli dəyişikliklərlə müqayisədə əvvəlki dəyişikliklər siyasi şüurlarda çox zəif təsir effekti yaradırdı. Müasir şəraitdə böyük təsir effekti yaradan transformasiyalar siyasi şüurlarda dərin izlər buraxmaqla yanaşı, həm də öz mürəkkəbliyi ilə fərqlənir. Ona görə də, bu tezis sübut edir ki, ictimai baxımdan əhəmiyyət kəsb edən hər hansı bir şəraiti və vəziyyəti təkcə sosial-iqtisadi deyil, həm də siyasi və mənəvi-əxlaqi baxımdan təhlil etmək və qiymətləndirmək lazımdır. Əks halda, yəni sonunculara məhəl qoyulmadıqda, istər cari vəziyyətin, istərsə də ictimai inkişafın, perspektiv meyllərin qiymətləndirilməsində ciddi səhvlər özünü göstərə bilir.

Dünya sosializm sisteminin dağılması nəticəsində yaranan milli dövlətlərin, o cümlədən, Azərbaycan Respublikasının beynəlxalq sistemdə baş verən dinamik dəyişikliklərə necə uyğunlaşması yeni şüur və yeni düşüncə tərzinin formalaşması ilə əlaqədar idi. Həmçinin qeyd etmək lazımdır ki, bu cür transformasiya mürəkkəb və uzunmüddətli prosesdir. Çünki, bu sadə insanın deyil, uzun müddət siyasi-ideoloji diktə və nəzarət altında saxlanılan totalitar insanın şüur dəyişkənliyi idi. Totalitar rejimin formalaşdırdığı insanın şüur transformasiyası bir sıra çətinliklər yaradır ki, bu da həmin rejimin xüsusiyyətlərindən irəli gəlirdi. Bu rejimin idrakı komponentləri içərisində insanların şüuruna, fikirlərinə, daxili dünyasına

ciddi nəzarət mühüm yer tutur. Totalitar şüur düşüncəsinə malik insan hansı xüsusiyyətləri ilə seçilir? Bunun əhəmiyyətini nəzərə alaraq, bu yarımfəsildə totalitar siyasi şüur və siyasi düşüncə tərzi ətraflı təhlil edilir və onun demokratik cəmiyyətlərə xas siyasi şüurla müqayisəli təhlili verilir. Siyasi şüurun fərdiyyətçilik və kollektivizm, siyasi mif və siyasi utopiya ilə qarşılıqlı əlaqə və təsirinə xüsusi diqqətlə yanaşılmışdır.

Bu dövrün siyasi şüurunda baş verən transformasiyalar zamanı «şəxsiyyət və siyasət» münasibətlərinin nisbəti çox mühüm əhəmiyyət kəsb edir. Burada əsas diqqət şəxsiyyətin siyasi davranışı üzərində cəmlənir. Ona görə də, siyasi davranış anlayışı və onun xarakteri müxtəlif səviyyələri öyrənilir və tədqiqat mövzusu ilə əlaqələndirilir.

Bu yarımfəsildə həmçinin həlli heç də sadə olmayan problemlərlə qarşılaşmış müasir Azərbaycan Respublikasında keçid dövründə və demokratikləşmə şəraitində şəxsiyyətin siyasi şüurunda baş verən dəyişikliklərin xarakteri, xüsusiyyətləri və istiqamətləri araşdırılaraq öyrənilmişdir. Mürəkkəb, çətin yolda Azərbaycan dövlətini bütün problemlərdən çıxaran Ümummilli Lider Heydər Əliyevin bu yolda siyasi fəaliyyəti dəqiqliklə araşdırılaraq təhlil edilmişdir.

Siyasi şüurlarda baş verən transformasiyaların siyasi praktik tərəflərini müstəqil Azərbaycan müstəvisində təhlil etsək, qeyd etməliyik ki, keçid dövründə Azərbaycan həlli heç də sadə olmayan problemlərlə qarşılaşmalı oldu. SSRİ-nin dağılmasından başlanan sosial-iqtisadi və siyasi sistemin kökündən dəyişməsi kimi çətin yolu necə keçməli idi? Sosial-iqtisadi quruluşun çətinliklərinin Ermənistanın işğalçılıq müharibəsi ilə bir vaxta düşməsi Azərbaycan dövlətçiliyinin dirçəldilməsini, intellektual inkişaf yoluna çıxması problemlərini daha da mürəkkəbləşdirmişdi. Mürəkkəb, çətin yolda Azərbaycan dövlətini bütün problemlərdən çıxarmağa qadir olan dövlət aparatına, onun rəhbərinə ehtiyac yaranmışdı və belə bir missiyanı Ümummilli lider Heydər Əliyev 1993-cü ildə öz üzərinə götürdü. Əsrlərə sığmayan yeni bir dövlətçilik ideyasının həyata keçirilməsi dövrü başlandı. Azərbaycan Respublikası sınaq, axtarışlar yolu olan son 22 ildə inzibati-amirlik sistemindən bazar iqtisadiyyatı və siyasi demokratiyanın ilkin yolunu qət etmişdir. Təsərrüfatçılığın yeni modelinə keçid dövrü başa çatmış, demək olar ki, qısa zaman ərzində bazar iqtisadiyyatının başlıca maketi və mexanizmləri yaradılaraq uğurla həyata keçirilir.

Bu yarımfəsildə həmçinin, siyasi şüurlarda baş verən dəyişikliklərin konstitusion-hüquqi əsasları Azərbaycan Respublikasının əsas Qanunu - Azərbaycan Respublikası Konstitusiyasının xüsusi maddələri vasitəsilə təhlil edilmişdir. Eyni zamanda, müasir dövrdə siyasi şüurun transfor-

masiya proseslərinə informasiya və bilik resurslarının, onların xüsusi daşıyıcısı olan KİV-in təsiri xüsusi olaraq tədqiqata cəlb edilərək araşdırılmışdır. Burada Azərbaycan Respublikasında baş verən siyasi dəyişikliklər zamanı KİV-in roluna da xüsusi diqqət ayrılmışdır.

**«Siyasi şüurun formalaşmasında siyasi sosiallaşmanın yeri və rolu»** adlı üçüncü yarımfəsildə siyasi şüurla sıx bağlı olan siyasi sosiallaşma prosesi kompleks şəkildə tədqiqata cəlb edilərək, elmi-nəzəri əsaslarının yarandığı şərait tarixi-politoloji aspektdə təhlil olunur. Ənənəvi və müasir konsepsiyaları nəzərdən keçirilərək müqayisəli formada araşdırılır, müasir demokratikləşmə prosesində onun yeni fəaliyyət və inkişaf istiqamətləri öyrənilərək ümumiləşdirilir. Beləliklə, şəxsiyyətin siyasət aləminə daxil olması prosesinin müxtəlif çalarlarının öyrənilməsinə xüsusi diqqət yetirilmişdir.

Ümumiyyətlə, siyasi fikir tarixi boyu müdrikləri və siyasətçiləri düşündürən «Siyasi sistem öz dəyər və məqsədlərini bir nəsildən digərinə necə ötürür?», «İnsanın siyasi tərbiyəyə ehtiyacı varmı?» kimi siyasi-mənəvi suallar keçid dövrünü yaşayan və yeni siyasi sistemə adaptasiya olunmağa çalışan vətəndaşları dərindən düşündürmüşdür. Bu suallara cavab tapmaq istiqamətində aparılan diskussiyalar fəlsəfi düşüncələr səviyyəsində olmuş və uzun müddət xüsusi politoloji istiqamət kimi formalaşa bilməmişdir. Yalnız XX əsrin ikinci yarısından başlayaraq, xüsusi siyasi rəng almağa başlamışdır. Məhz ona görə də, «siyasi sosiallaşma» probleminin siyasət elmində xüsusi politoloji istiqamət kimi formalaşmasına təkan verən dövrün və elmi-nəzəri baxışların siyasi təhlilinə və geniş araşdırılmasına xüsusi diqqət göstərilmişdir.

«Siyasi sosiallaşma» konsepsiyasını meydana gətirən ən mühüm səbəb insanların siyasətə marağı və siyasətin insanların taleyində oynadığı danılmaz rol olmuşdur. Siyasi sosiallaşma prosesi özündə belə bir prinsipi ehtiva edir: insan onun dövlətində fəaliyyət göstərən bu və ya digər qanunları nəinki dərk etməli, habelə hər şeydən əvvəl, həmin qanunların ona bilavasitə aid olduğunu başa düşməlidir.

Bu yarımfəsildə siyasi sosiallaşmanın elmi-nəzəri əsaslarının meydana gəlməsinin səbəbi XX əsrin ortalarında qərb cəmiyyətlərində siyasi sistemin ənənəvi institutlarının böhranı və bu institutların reklam olunan demokratik dəyərlərin yeni nəsillər tərəfindən könüllü olaraq qəbul edilməsini təmin edə bilməməsi ilə əlaqələndirilərək öyrənilmişdir. Bu təhlillər zamanı siyasi ideyaların və dəyərlərin nəsildən-nəslə ötürülməsi mexanizmləri qərb alimlərinin araşdırdıqları üfüqi və şaquli sosiallaşma formaları ilə əlaqələndirilərək tədqiq olunmuşdur. Xüsusilə, siyasi

sosiallaşma prosesində KİV-in yeri və rolu, onun bu prosesə təsir və əks-təsir imkanları geniş təhlil edilmişdir.

Bu yarımfəsildə xüsusi maraq doğuran məsələ siyasi sosiallaşma prosesinin Azərbaycan siyasi müstəvisində tədqiq və təhlil olunmasıdır. Bu zaman Azərbaycanda üç dövrün – sovet dövrü və müstəqilliyin bərpa edildiyi post sovet dövrü və müasir dövrün siyasi sosiallaşma prosesləri araşdırılmışdır. Eyni zamanda insan kapitalı və kreativ nəsil anlayışları tədqiqata cəlb edilərək siyasi sosiallaşma prosesləri ilə qarşılıqlı əlaqədə öyrənilmişdir.

Ümummilli Lider Heydər Əliyevin dövlətçilik ideyaları və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu siyasi kursu nəticəsində dövlətimizin əldə etdiyi yüksək inkişaf sürəti və inkişafın Azərbaycan modeli strategiyası uğurlu siyasi davranış, siyasi düşüncə və siyasi şüurun nəticəsində mümkün olmuşdur. Lakin müasir dünyanın inkişaf sürəti hər bir subyektdən əldə olunan nəticələrlə kifayətlənməməyi, milli, mənəvi dəyərlərə, intellektual insan potensialına və milli potensiala arxalanaraq inkişaf etməyi və yenilənməyi tələb edir. Bu məsələ yeni nəslin qarşısında çox mühüm vəzifələr qoyur. Son zamanlar ölkəmizdə daha aktiv müzakirə olunan «kreativ nəsil» mövzusu bu məsələnin ciddiliyindən və son dövrün çox vacib çağırışlarının olmasından xəbər verir. Gələcəkdə idarəetmənin və dünya siyasi proseslərinin inkişaf sürətilə ayaqlaşmaq üçün müasir gənclərdən yüksək intellekt və kreativ şüura malik olmaq tələb olunur. Belə demək mümkündürsə, gələcək yüksək intellekt və kreativ düşüncə ilə idarə ediləcəkdir. Bu məsələlər Azərbaycan dövləti üçün də çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın gələcək müstəqil inkişafı bu dövlətçilik ənənələrini yaşatmağa qadir olan əzmkar, intellektual və kreativ gənclərin üzərində olan məsuliyyətdir. Bu məsuliyyətin yükünü çəkmək və öz dövlətinin tam sahibi olmaq yüksək şüura, siyasi intellektə, siyasi sosiallaşma və siyasi davranış səviyyəsinə malik kreativ gənclərin əsas vəzifəsi olacaqdır.

***«Demokratikləşmə şəraitində şəxsiyyətin siyasi şüurunun formalaşması prosesinə KİV-in təsiri xüsusiyyətləri»*** sərlövhəli II fəsil üç yarımfəsildən ibarətdir. Bu fəslin ***«Keçid dövründə KİV-in siyasi funksiyaları və siyasi şüurun formalaşmasına təsiri istiqamətləri»*** adlanan birinci paraqrafında tədqiqat işinə uyğun olaraq, KİV-in siyasi funksiyalarının şəxsiyyətin siyasi şüuruna təsiri, bu təsir istiqamətlərinin öyrənilməsi və tənzimlənməsi mexanizmləri araşdırılaraq təhlil edilmişdir. Eyni zamanda, KİV-in yaranması və inkişafı vətəndaşların siyasi proseslərdə iştirakı və ona təsir imkanlarının artması ilə əlaqəli şəkildə

təhlil edilir, onun siyasi fəaliyyətinə müxtəlif ideoloji yanaşmalar müstəvisində qiymət verilir və bu fəaliyyətin forma və istiqamətləri tarixi-siyasi şəraitə nəzərən araşdırılmışdır. Bu paraqrafda KİV-in siyasi funksiyalarının təsiri yalnız keçid dövründə deyil, eyni zamanda qlobal-demokratik siyasi dəyişikliklər fonunda araşdırılmışdır. Elmi-texniki tərəqqinin gücləndirilməsi nəticəsində baş vermiş dəyişikliklər informasiya cəmiyyətinin yaranmasına, müasir informasiya kommunikasiya texnologiyalarının inkişafının sosial-siyasi prosesləri daha da səmərəli şəkildə idarə etmək üçün geniş imkanlar yaratmasına, siyasi proseslərin KİV-lə əlaqədar həyata keçirilən siyasətin çevikliyindən və praqmatikliyindən asılı olmasına, informasiya cəmiyyətinin yaradılması ilə əlaqədar siyasi mübarizə meydanının informasiya müstəvisinə keçməsinə səbəb olmuşdur. Məhz bu mövqedən çıxış edərək, müasir cəmiyyəti, ictimai fəaliyyətin müxtəlif formalarını, elm və maarifin inkişafını KİV-siz təsəvvür etmək mümkün deyil.

Bu yarımfəsildə şəxsiyyətin siyasi şüurunun formalaşmasında KİV-in siyasi təsir gücünün artması yalnız müasir informasiya kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə deyil, cəmiyyətlərin inkişafının mövcud tarixi-siyasi şəraitinin tələbləri baxımından tədqiq olunmuşdur. Mövcud inkişafın tələbləri ilə bağlı olan demokratik idarəetmənin həyata keçirilməsi və möhkəmləndirilməsində, hüquqi dövlət və vətəndaş cəmiyyətinin bərqərar olmasında, yeni nəslin siyasi şüur və siyasi təfəkkürünün formalaşmasında, vətəndaşların hüquq və azadlıqlarının və siyasi sistemin fəaliyyətinə ictimai nəzarətin təmin olunmasında KİV-in rolu mühüm əhəmiyyət kəsb edir.

***«KİV və siyasi şüurun qarşılıqlı təsir mexanizmləri: siyasi manipulyasiya və informasiya təhlükəsizliyi»*** adlı ikinci yarımfəsildə KİV-in cəmiyyətin siyasi həyatında siyasi şüura və siyasi fəaliyyətə manipulyativ təsir imkanları sistemli şəkildə tədqiqata cəlb olunmuşdur. Müasir qlobal siyasi proseslər şəraitində manipulyativ təsir imkanları daha da güclənərək öz qüvvəsini artırmaqdadır. Bu əsasən, müasir cəmiyyətin daha çox informativ əhəmiyyət daşıması və informasiya kommunikasiya texnologiyalarının inkişafı ilə bağlıdır. Geniş informasiya şəbəkələri və kommunikasiya texnologiyaları siyasi manipulyativ manevr üçün geniş imkanlar açır. Bu baxımdan, müasir dövrdə siyasi manipulyasiyanın tədqiqi hər zaman aktuallığını saxlayır.

Bu yarımfəsildə müxtəlif siyasi sistemlərdə KİV-in siyasi manipulyativ təsir imkanları araşdırılır, bu sistemlərin manipulyativ fəaliyyətə nə qədər meylli olması və onunla mübarizə üsullarının necə

təşkili öyrənilərək təhlil edilmişdir. Mətbuat, radio, televiziya və internetin manipulyativ təsir imkanları ayrı-ayrılıqda araşdırılır və bu araşdırmaların ümumi nəticələri müqayisəli şəkildə izah edilir.

Ümumiyyətlə, KİV-in manipulyativ fəaliyyətə meylli olması və fərdlərin siyasi şüuruna təsiri şübhə doğurmur və birmənalı şəkildə qəbul olunur. Lakin belə bir sual yaranır: KİV bütün siyasi şüurlara eyni dərəcədəmi təsir göstərir və yaxud hansı xüsusiyyətlərə malik siyasi şüurlar daha çox manipulyasiyanın qurbanı ola bilir? Araşdırmalar sübut edir ki, bütün insanların deyil, qapalı siyasi sistemlərdə formalaşmış və fəali siyasi fəaliyyətə cəlb olunmayan, yanlış siyasi gerçəklik üzərində formalaşan siyasi şüurlar manipulyativ təsirə daha çox məruz qalır. Tədqiqatın gedişində KİV-in manipulyativ təsir imkanları onun fəaliyyət mexanizmləri ilə qarşılıqlı əlaqədə təhlil edilir. İnformasiyanın əsas manipulyativ vasitəyə və idarəetmənin əsas funksiyasına çevrilməsi, informasiya kommunikasiya texnologiyalarının müasir inkişafının onlardan asılılıq yaratması və milli, beynəlxalq təhlükəsizlik üçün yeni təhdidlər törətməsi, XXI əsrdə sənaye cəmiyyətinin informasiya cəmiyyəti ilə əvəz olunması informasiya təhlükəsizliyini milli təhlükəsizliyin əsas amili kimi prioritet istiqamətə çevirmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz çıxışlarında informasiya təhlükəsizliyi və informasiya təhdidləri ilə əlaqədar məsələlərə xüsusi önəm verir: «Biz enerji, ərzaq təhlükəsizliyi haqqında danışırıq. Bu, çox vacibdir. İnformasiya təhlükəsizliyi də indiki dövrdə çox vacibdir. Çünki mən hesab edirəm ki, bu sahədə hələ çox işlər görülməlidir...Biz internet dövründə yaşayırıq. Bu reallıqdır və biz bu reallığa hazırıq. Azərbaycan o ölkələrdəndir ki, burada azad internet vardır. Bunu bəzən bizi tənqid etmək istəyənlər unutmasınlar... Əlbəttə, informasiya təhlükəsizliyi məsələləri daha da çox aktualdır. Çünki, qlobal informasiya məkanında informasiyalarla bərabər, təxribatlar da kifayət qədər çoxdur. Bu təxribatlar bəzi hallarda açıq, bəzi hallarda məxfi, yəni gizli xarakter daşıyır. Bizə qarşı informasiya müharibəsi aparılır. Bu, həqiqətdir. Mən buna əminəm ki, bu barədə iki fikir ola bilməz. Bu informasiya müharibəsinin aparılması işində, əlbəttə ki, ilk növbədə, erməni lobbisi öz fəallığı ilə seçilir. Azərbaycanı qaralamaq, Azərbaycan reallıqlarını danmaq, Azərbaycanı geridə qalmış, antidemokratik ölkə kimi dünyaya təqdim etmək cəhdləri, ilk növbədə, erməni lobbisinin çirkin

əməllərindən qaynaqlanır».[1]

İnformasiya təhlükəsizliyinin təmin edilməsi üçün informasiya təhlükələrinin daim fəaliyyət göstərən beynəlxalq monitorinq mexanizminin yaradılması, hərbi informasiya təcavüzünə və ya digər hər hansı informasiya vasitələrinin qeyri-qanuni təqibinə məruz qalmış ölkələrə kömək üçün informasiya-texniki yardım mərkəzlərinin yaradılması, ola biləcək informasiya-terrorist hücumlara qarşı çevik reaksiya verən beynəlxalq mütəxəssis qruplarının təşkil edilməsi vacibdir. Siyasi, texniki və hərbi xarakterli tədbirlərin geniş spektrinin həyata keçirilməsi, müasir dünyanın informasiya inkişafının son dərəcə təhlükəli viruslardan qorunmasının və informasiya təhlükəsizliyinin təmin olunmasının etibarlı qarantıdır.

Azərbaycan Respublikasının informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması üçün ölkədə informasiyanın, həmçinin dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistem və informasiya infrastrukturu inkişaf etdirilir və möhkəmləndirilir.

***«Azərbaycan Respublikasında KİV və şəxsiyyətin demokratik siyasi şüurunun formalaşması»*** adlı üçüncü yarımfəsildə demokratikləşmə şəraitində KİV-in cəmiyyətdə baş verən proseslərə təsirinin artmasının səbəbləri araşdırılır, bu səbəblər ümumiləşdirilərək, KİV-in tarixi inkişafın əvvəlki dövrlərindəki təsir imkanları ilə müqayisəli şəkildə təhlil edilir. Müasir dövrdə qloballaşmanın tələbindən irəli gələn və informasiya axını proseslərinin tənzimlənməsi ilə əlaqədar yaranmış medialogiya, kommunistika, mediapsixologiya, informasiologiya və s. bu kimi yaranan elm sahələrinin araşdırılmasına xüsusi diqqət yetirilmişdir. Eyni zamanda, KİV-in yeni yaranan hər bir formasının əvvəlki mövcud forması ilə fərqli xüsusiyyətləri təhlil edilir, operativlik imkanları və informasiyanın yayıldığı arealın genişlənməsi xüsusiyyətləri geniş araşdırılaraq tədqiq olunur. Paraqrafın mövzusunun dəqiq və əhatəli araşdırılması üçün tarixi-politoloji təhlil metoduna müraciət edilmişdir. Bu təhlil əsasən, Azərbaycanda KİV-in, xüsusən də mətbuat, radio, televiziya və internetin yaranması və inkişaf meyllərinin ətraflı araşdırılması üzərində qurulmuşdur. KİV-in Azərbaycanda fəaliyyətinin sovet dövrü, Azərbaycanın müstəqilliyinin bərpası dövrü və müasir dövrü əlaqəli şəkildə öyrənilib nəticələr ümumiləşdirilmişdir.

---

[1] Prezident İlham Əliyevin sədrliyi ilə keçirilmiş Nazirlər Kabinetinin 2012-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclas. «Respublika» qəzeti, 2012, 17 aprel.

KİV-in beynəlxalq münasibətlər və daxili siyasətdə dördüncü hakimiyyət kimi fəaliyyətinin ümumi prinsipləri təhlil edilir və onun digər hakimiyyət qolları ilə müqayisədə fərqli və oxşar cəhətləri, onlara təsir imkanları xüsusi olaraq tədqiq edilmişdir. KİV-in fəaliyyətinin tənzimlənməsinin hüquqi əsaslarının araşdırılmasına, bu sahənin inkişafı ilə əlaqədar verilmiş qanun, sərəncam və fərmanların öyrənilməsinə geniş yer verilmişdir. Azərbaycan müstəvisində KİV-lə əlaqəli həyata keçirilən siyasətin hüquqi, iqtisadi, sosial əsasları təhlil edilərək, tədqiqata cəlb edilmişdir. Eyni zamanda, Ümummilli Lider Heydər Əliyevin KİV-in fəaliyyəti tlə bağlı elmi-nəzəri və elmi-praktik baxışları mövzunun düzgün istiqamətləndirilməsi baxımından əvəzsiz mənbə rolunu oynayır. Ulu Öndərin fikrincə, demokratik mətbuat ümumiləşdirilmiş şəkildə desək, bu rəsmi və sırf fərdi nöqteyi-nəzərlərin ifadəsi üçün hüquqların bərabərliyinə nail olmaqdır, hakimiyyətin müxtəlif qollarının (o cümlədən də «dördüncü» qolunun, yəni mətbuatın özünün) fəaliyyəti haqqında operativ xəbərlər axınıdır. Nəhayət, mətbuat dövlətlə cəmiyyəti birləşdirən canlı əlaqə vasitəsidir, fasiləsiz ikitərəfli əlaqə kanalıdır. Yalnız bu şərtlər təminat yaradır ki, hökumət xalqın iradəsinə uyğun olaraq hərəkət etsin.[1]

Bu yarımfəsildə ölkəmizdə milli təhlükəsizliyin əsasını təşkil edən milli maraqların təmin edilməsinə istiqamətlənmiş informasiya siyasəti geniş şəkildə tədqiqata cəlb edilərək təhlil edilmişdir. İnformasiya siyasəti ümumilikdə Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsasını təşkil edir və dövlətin milli maraqlarının qorunmasına istiqamətlənməklə onun strukturları üzərinə xüsusi vəzifələr qoyur. Müasir dövrdə daima dəyişən və dinamik olan təhlükəsizlik mühiti informasiya siyasətinin dövrün tələbinə uyğun olaraq yenilənməsini və yeni dünya nizamının çağırışlarına cavab verməsini tələb edir. Ulu Öndər Heydər Əliyev öz çıxışlarında informasiya siyasətinin və KİV-in vətəndaşların siyasi şüuruna təsiri istiqamətlərinin ümumi mənzərəsini bu cür ifadə edirdi: «Kütləvi informasiya vasitələri siyasi plüralizmi və demokratiyanı dərinləşdirərək, vətəndaşların informasiya tələbatını təmin edərək, cəmiyyətimizin irəliyə doğru hərəkətində qarşıya çıxan maneələri dəf etməkdə mühüm rol oynayaraq, müstəqil dövlət quruculuğu prosesinin fəal iştirakçısı olmalıdır. Hər bir kütləvi informasiya vasitəsi müstəqil dövlət, vətəndaş cəmiyyəti quruculuğu, milli və dünyəvi dəyərlərin bərqərar olması, ölkənin inkişafını təmin edən islahatların həyata keçirilməsi prosesində effektiv iştirak etməli,

[1] Heydər Əliyevin Rusiyada nəşr olunan «Jurnalist» jurnalına müsahibəsi, «Azərbaycan» qəzeti, 2000, 19 may

həyatın güzgüsü, həqiqət carçısı olmalıdır. İnsanları yüksək ideallar, humanist vətəndaş və demokratik cəmiyyət uğrunda mübarizəyə çağırmalı və səfərbər etməlidir.[1]

Müasir dövrdə KİV-in insan hüquqlarına münasibətdə fəaliyyətinin əsaslandırılmasında mühüm əhəmiyyət kəsb edir. Həmçinin milli azadlıq düşüncəsinin formalaşmasında KİV-in rolunun araşdırılması və bu rolun gələcək üçün düzgün istiqamətləndirilməsi çox vacib və mühüm məsələdir.

Azərbaycan respublikasında çıxan qanun və sənədlərdə Azərbaycan vətəndaşlarının mədəni, ictimai-siyasi səviyyəsinin yüksəlişi üçün müasir dövrdə elmi və siyasi informasiyanın kütlələrə mümkün qədər ətraflı, geniş şəkildə çatdırılması mühüm problem kimi qarşıya qoyulur, kütləvi informasiya və təbliğat vasitələrinin ideya səviyyəsini, onların işinin əlaqələndirilməsini və operativliyini yüksəltmək məsələlərinə böyük əhəmiyyət verilir.

**Nəticədə** tədqiqatın yekunu olaraq əldə edilmiş nəzəri-praktik əhəmiyyət daşıyan elmi müddəalar ümumiləşdirilmiş, tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür.

**Dissertasiya işinin əsas məzmunu müəllifin aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:**

1. Cəmiyyətin siyasi şüurunun inkişafında KİV-in yeri və rolu// AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, «Sosial-siyasi problemlər» (elmi məqalələr toplusu), IX buraxılış, Bakı, 2003. s.251-252

2. Siyasi milli şüur: quruluşu, mərhələləri və inkişafı // AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, «Sosial-siyasi problemlər» (elmi məqalələr toplusu),, IX buraxılış, Bakı, 2003 s.75-78

3. Milli şüurun formalaşmasında milli ideya amili // AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, «Sosial-siyasi problemlər» (elmi məqalələr toplusu), X buraxılış., Bakı, 2004. s.92-95

4. KİV-in plüralizmi haqqında əfsanə və siyasi manipulyasiya mədəniyyəti // AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, «Ümummilli lider Heydər Əliyev və milli dövlətçiliyimizin inkişafı məsələləri», Heydər Əliyevin anadan olmasının 83-cü ildönümünə həsr olunmuş elmi-nəzəri konfransın materialları. Bakı, 2006. s.188-192

5. Siyasi sosiallaşma: prosesləri və tipləri // AMEA Fəlsəfə və

[1] Heydər Əliyevin kütləvi informasiya vasitələri haqqında çıxışı. www.aliyevheritage org.

Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu ,«Elmi əsərlər» (elmi-nəzəri jurnal), Bakı, 2007, №2-3 (9). s.197-201

6. Siyasi şüur-ictimai şüurun tərkib hissəsi kimi // AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, «Elmi əsərlər» (elmi-nəzəri jurnal), Bakı, 2007, №3 (16). s.39-48

7. Siyasi manipulyasiya və onun məhdudlaşdırılması yolları // «Beynəlxalq hüquq və inteqrasiya problemləri» (elmi-analitik və praktiki jurnal), BDU, 2008, №4 (16). s.216-221

8. Kütləvi informasiya vasitələri və informasiya təhlükəsizliyi // «Beynəlxalq hüquq və inteqrasiya problemləri» (elmi-analitik və praktiki jurnal), BDU, 2009, №1 (17). s.272-278

9. Kütləvi informasiya vasitələri və müasir cəmiyyət // «Beynəlxalq hüquq və inteqrasiya problemləri» (elmi-analitik və praktiki jurnal), BDU, 2009, №2 (18). s.256-261

10. Современный мир и информаöионное общество // «Право и политология » научный журнал №5 (10). Тбилиси, Новембер – 2009. с.64-67

11. KİV-in sosial həyatımızdakı yeri və əhəmiyyəti. // Ulu Öndər Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr edilmiş «Heydər Əliyev və Azərbaycan Respublikasının Beynəlxalq əməkdaşlıq siyasətinin əsas inkişaf tendensiyaları». mövzusunda 06-07 may 2010-cu il tarixdə keçirilmiş elmi-praktik konfransın materialları. BDU, 2010. s.293-296

12. Keçid dövrü: Heydər Əliyev və söz azadlığı. // «Beynəlxalq hüquq və inteqrasiya problemləri» (elmi-analitik və praktiki jurnal), BDU, 2010, №4 (24). s.117-123

13. Средства массовой информации и политические процессы. «Гилея» Науковий висник, Выпуск 66 (11), Киев 2012, с. 606-610.

**Kamala Qurban Abdinova**

## İn the period of transition the roles of mass media information of the political consciousness of the personality


## SUMMARY

The dissertation consists of two chapters, three paragraphes in each chapters, the result and list of the literature after its introduction. The first chapter of the dissertation is called as it: In the transition type societies to the political conciousness and its formation problem are called theoretical approaches. This chapter consists of three paragraphes:

"The political consciousness" is as the part of the social consciousness during the transition period "transformations which are occurred in the political consciousness", "the paragraphes are called as the place and role of the political cosialization which are in the formation of the political consciousness" are laplored as the complex.

In the conditions of the democratization "The political functions of Mass Media during the transition period on the second chapter called as the characteristics of influences of Mass Media are to the formation process of the political consciousness of the personality" and "the influence trends to the formation of the political consciousness", Mass Media and mechanisms of interaction of the political consciousness, "the political manipulation and information security", "In the Azerbaijan Republic Mass Media and the paraqraphes are called as the formation of the democratic political consciousness of the personality" are explored as the complex.

Result: In the dissertation the influence of Mass Media that are ocurred to the processes of the society in Azerbaijan are analyzed in details. In the conslusion, as a result of the dissertation, scientific provisions are generalized which are obtained, have the importance as treoretical – practical, recommendations and suggestions are put forward.

**Кямаля Гурбан кызы Абдинова**

## Роль средств массовой информации в формировании политического сознания личности в условиях переходного периода

## РЕЗЮМЕ

Представленная диссертация состоит из введения, двух глав, состоящих каждая из трех параграфов, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность и значимость темы, определяется объект, цели и задачи исследования, научная новизна и практическое значение работы.

Исследование роли средств массовой информации в формировании политического сознания личности в условиях переходного периода актуально и представляет очень важную проблему для государств, проживающих или только завершивших этот период, особенно для современной Азербайджанской Республики с точки зрения выбора правильного, соответствующего требованиям современного периода, направления надежной и непрерывной стратегии развития государства.

В первой главе диссертационной работы под названием «Политическое сознание в обществах переходного типа и теоретические подходы к процессу его формирования» на основе политической теории и практики всесторонне анализируются и широко исследуются традиционные и современные политические теории, связанные с деятельностью и развитием политического сознания в обществах, проживающих переходный период или только завершивших его, дихотомия индивид-личность, являющаяся его составным и центральным элементом, трансформации, происходящие в политическом сознании вследствие требований времени, политическое поведение, стоящее в основе политического сознания и стимулирующее его, процессы политической деятельности и политической социализации, а также даются общие рекомендации по поводу проблемы.

Во второй главе диссертации под названием «Место и роль СМИ в процессе формирования политического сознания личности в условиях перехода к демократии» исследованы научно-теоретические

основы и практическая деятельность СМИ, особенно прессы, радио и телевидения, их возможности влияния на политическое сознание общества, механизмы регулирования направлений политического влияния, анализированы информационная политика, являющаяся одной из основ Национальной Концепции Безопасности современной Азербайджанской Республики, и в целом государственная политика, проводимая в нашей стране в связи с СМИ.

В заключении автор приходит к выводы, что хотя изучение возможностей влияния СМИ на политическое сознание с научной точки зрения и представляется несложной проблемой, в политической практике пути её решения не беспредельны, для этого в первую очередь необходимо изучить изменения в политическом сознании индивидов в обществах переходного периода, сопровождающиеся напряженностью, и средства, способные стабилизировать эти изменения путем регулирования.

**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ
ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

На правах рукописи

**КЯМАЛЯ ГУРБАН кызы АБДИНОВА**

# РОЛЬ СРЕДСТВ МАССОВОЙ ИНФОРМАЦИИ В ФОРМИРОВАНИИ ПОЛИТИЧЕСКОГО СОЗНАНИЯ ЛИЧНОСТИ В УСЛОВИЯХ ПЕРЕХОДНОГО ПЕРИОДА

Специальности: 5904.01 – Политические институты и системы

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание научной степени
доктора философии по политическим наукам

**БАКУ-2013**